

# Şuşada tarixi an

Azərbaycan ilə Türkiyə arasında qardaşlığın böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr düşmənləri əsrlər boyu nə qədər narahat etsə də bu dəyərləri bir-birindən ayıra bilməyiblər, həm də başqa səmtə yozmağa gücləri çatmayıb. Bu qardaşlığın kökləri çox dərinlikdədir, o qədər qırılmaz tellərlə bir-birinə bağlıdır ki, dövranın heç bir gərdişi onu poza bilməyib, onlar zamanın ən çətin sınağından şərəflə çıxıblar. Yaxşı bir el məsəlində deyildiyi kimi, dar gündə qardaş qardaşa arxadır, dayaqdır. Bu qardaşlığa kölgə salmağa cəhd edənlərin xəbis niyyətləri bütün zamanlarda gözlərində qalıb.

## Və yaxud, qardaş ölkələr arasında son iki yüz illik dövrün yeni mərhələsi

1990-1991-ci illərdə Naxçıvan Muxtar Respublikasında vəziyyət mürəkkəb və gərgin idi. Ermənistanın düşmənçilik siyasəti yanacağı, ərzaq məhsullarının çox hissəsini Bakıdan alan Naxçıvanı son dərəcə çətin vəziyyətə salmışdı. Ermənistan ərazisindən keçən dəmir yolu işləmədiyi üçün həmin məhsulların Naxçıvana gətirilməsi qeyri-mümkün idi. Bakı ilə əlaqə yalnız hava yolu vasitəsilə saxlanılırdı. Məhz ulu öndərin təşəbbüsü ilə Araz çayı üzərində çox qısa bir müddətdə körpü tikildi. Ümummilli lider Heydər Əliyev ən ağır illərdə Naxçıvanla Türkiyə arasında inşa edilmiş körpünün açılış mərasimində uzun illər davam edən həsrət və intizarın sona çatmasını bildirərək deyib ki, bu gün arzu və ümidlərimizin körpüsü açılır. 70 ildən artıq idi ki, bu günü gözləyirdik və arzularımız həyata keçdi.

Həmin çətin illərdə sözün əsl mənasında qardaş-qardaşa qucaq açdı, əllərimiz kimi ruhumuz da birləşdi, könüllərdəki həsrətə son qoyuldu. Həyatın bütün sahələrində sarsılmaz bağlar yarandı, əlaqələr daha da genişləndi, ulu öndərin dediyi "Azərbaycanla Türkiyə bir millət iki dövlət"dir kəlamı həqiqəti, tarixi kökləri, qardaşlığı əks etdirdi. Ölkəmiz uzun illər Ermənistanın işğalından, törətdiyi hərbi cinayətlərdən əziyyət çəkib. 1992-ci il və 1993-cü ilin may ayına kimi havadarlarına arxalanan düşmənin azərbaycanlıların taleyinə vurduğu ağır zərbə, torpaqların zəbt edilməsi, şəhər və kəndlərin əsarətdə qalması, dinc insanların öz dədə-baba yurdlarından didərgin düşməsi Azərbaycanı humanitar fəlakətlə üz-üzə qoymuşdu. Yenicə müstəqilliyini elan edən ölkəmizə qarşı başlanan bu aqressiya təhlükəli bir həddə çatmışdı. Məhz həmin vaxt qardaş Türkiyə Azərbaycanı təklənməyə qoymadı, onun yanında dayandı, kömək əlini uzatdı və heç bir tərəddüd etmədən Ermənistanla sərhədlərini bağladı.

Əslində bu qardaşlığı əks etdirən təqdirəlayiq hadisələr, mühüm məqamlar, həyatın içindən gələn örnəklər daha çoxdur. Şahidi olduğum bir hadisə illər keçsə də yaddaşımdan silinməyib. 1993-cü ilin axırlarında məcburi köçkünlər üçün Yevlax rayonu ərazisində Türk Qızıl Ay təşkilatı böyük bir köçkün düşərgəsi salmışdı. Düşərgədə məskunlaşan ailələrə ərzaq yardımı, zəruri məişət əşyaları verilirdi. Türk qardaş və bacılarımız heç kəsin diqqətdən kənarda qalmasına imkan vermirdilər. Ailə başçısını itirmiş, beş körpə övladı ilə amansız taleyin qarşısında tək qalan bir qadın çox ciddi problemlə üzləşmişdi. Onun bütün sənədləri erməni işğalında qalmışdı. Türk Qızıl Ayın nümayəndəsi onun müraciətini dinləyən kimi həmin ailənin ərzaqla təmin edilməsinə göstəriş verdi. Əslində, sənədlər olmadan həmin yardımı vermək olmurdu. Onlarla belə ailə var idi, buna baxmayaraq, onların sıxıntı çəkməsinə imkan verilmədi, qayğı ilə əhatə olundular. Acıları da birlikdə çəkən qardaşlarımız heç kəsin kənarda qalmasına yol vermirdilər. Yardım gətirən TIR-ların üzərinə yazılmış Türk xalqından qardaş Azərbaycan xalqına humanitar yardım sözləri erməni işğalına ürcah olan hər kəsin ocağının yanmasına, çırağının sönməməsinə səbəb oldu.

**(davamı 4-cü səhifədə)**

# Şuşada tarixi an

***Və yaxud, qardaş ölkələr arasında son iki yüz illik dövrün yeni mərhələsi***

**(əvvəli 3-cü səhifədə)**

Yaxud da, Türkiyədə ötən ilin yayında baş vermiş meşə yanğınları zamanı ilk yardım göstərən Azərbaycan qardaşlığın və birliyin sarsılmaz təməl üzərində olduğunu bir daha göstərdi. İki qardaş xalq aləmi qovuran yanğına qarşı çiyin-çiyinə mübarizə apardı. Həmin yanğınlar zamanı azərbaycanlı yanğınsöndürənin alovların ağuşundan xilas etdiyi Türk bayrağını necə böyük məhəbbətlə, qürurla sinəsinə sıxdığının şahidi olduq. Heç kəs onu bu işi görməyə məcbur etməmişdi, qardaşlığımız, türklüyümüz həmin gəncin damarlarında qanla birlikdə axdığı üçün o, bu addımı ilə milyonların qəlbində taxt qurdu.

2020-ci ilin payızında işğaldan azad edilən Qarabağda tarixi baxımdan çox qiymətli, mənəvi baxımdan isə qürurverici və şərəfli bir mənzərənin şahidi olduq. Qardaş Türkiyənin mənəvi və siyasi dəstəyi sayəsində Azərbaycan işğalçılara qarşı aparılan Vətən müharibəsində parlaq qələbə qazandı. Cəmi 44 gün ərzində dünyanı heyrətə gətirən Azərbaycan hərbçilərinin döyüş taktikası və ən müasir hərbi silahlardan istifadə etməsi, vətənpərvər gənclərin qəhrəmanlığı, xalqın sevgi, inam və birmənalı dəstəyini qazanmış Prezident İlham Əliyevin sərkərdə qətiyyəti tarixin səhifələrinə qızıl hərflərlə həkk olundu. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazinin mövcud olmadığını bildirən dövlətimizin başçısı dedi: "Əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm -- Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır".

Qardaş Türkiyənin və Azərbaycanın döyüşlərin getdiyi vaxtlarda qəti və birmənalı mövqeyi daha yeni bir reallığın yaranmasından xəbər verdi. Əvvəldən mövcud olan iqtisadi, hərbi-texniki əməkdaşlıq, yüksək səviyyədə keçirilən hərbi təlimlər və regional layihələrdə birgə iştirak bölgədə yeni reallığın yarandığını göstərdi. Buna Azərbaycan və Türkiyənin də tərəfdaş olduğu nəhəng regional layihələr Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP misal göstərilə bilər. Məlum olduğu kimi, bu layihələr regionda iqtisadi inteqrasiyanın güclənməsi, enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Ötən il iyun ayının 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad edilən qədim Şuşa şəhərinə səfəri Türkiyə-Azərbaycan əlaqələrinin tarixində unudulmaz bir gün oldu. Azərbaycan Prezidenti İlham Əliyevin və qardaş Türk Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşada keçirdikləri mətbuat konfransı son iyirmi il ərzində Türkiyə və Azərbaycanın dünya miqyasında müttəfiqlik münasibətlərinin zirvəsinə çevrildi. Qarabağın ürəyi, Azərbaycanın mədəniyyət paytaxtında iki qardaş ölkə arasında imzalanan Şuşa Bəyannaməsi iki yüz il bundan əvvəl bağlanmış Qars müqaviləsinin həyati əhəmiyyətini göstərdi. Tarixçilərin qənaətinə görə, 2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi - Müttəfiqlik müqaviləsi iki qardaş ölkənin Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdi. Həm də Şuşa Bəyannaməsi tarixi varisliyi göstərməklə Qars müqaviləsinin həyatiliyini və uzunömürlülüyünü, Cənubi Qafqazda yeni reallığın yarandığını nümayiş etdirdi.

Eyni zamanda, Şuşa Bəyannaməsi ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahəsindəki imkan və potensiallarının birləşdirilməsinə yeni bir təkan verdi. Ötən ilin yayında Şuşada sözün əsl mənasında həqiqət anı yaşandı, ortaq tariximizin yeni bir mərhələsi başlandı. Fərəh hissi ilə demək lazımdır ki, Şuşa Bəyannaməsi bu il fevralın 1-də Azərbaycan parlamenti tərəfindən ratifikasiya olunub. Türkiyə və Azərbaycan arasında münasibətlərin rəsmi şəkildə strateji müttəfiqlik səviyyəsinə qaldırılmasını nəzərdə tutan Şuşa Bəyannaməsini Türkiyə Böyük Millət Məclisi də təsdiqləyib.

**Salman ALIOĞLU,**
**"Respublika".**